9918 günlük həsrətdən sonra Füzulidə açılan sabah

Asif Quliyev

Haqq-ədalət yolunda müharibə aparan rəşadətli ordumuz Cəbrayıldan, Hadrutdan, onlarla kəndlərimizdən sonra, oktyabrın 17-də 27 illik işğaldan sonra Füzuli şəhərini də düşməndən azad etməklə Azərbaycanın hərb tarixinə yeni bir tarix yazdı.

Füzulinin işğalı zamanı şəhəri sonuncu tərk edən, tanınmış jurnalist Asif Quliyev "9918 günlük həsrətdən sonra açılan sabah" adlı məqaləsində şəhərin, eləcə də rayonun işğalı zamanı canlı şahidi olduğu hadisələrdən, qaçqınların qürbətdə keçirtdikləri torpaq həsrətindən və bir də bu müharibə günlərində xalqın fədakarlığından, orduya dəstəyindən yazır.

Qanadlımı, qanadsızmı ötüb keçən ömrümün ağrılı-acılı anları ilə yanaşı xoş günləri də çox olub. Bütün insanlar kimi mən də ilk anlarda "bu günü" heç vaxt yaddam çıxarmaram deyə fikirləşsəm də, illər keçdikcə o günlərin hamısı, yaxşısı da, pisi də, yavaş-yavaş unudulub, yaddan çıxıb, xatirəyə çevrilib. Amma ömrümə qara hərflərlə yazılan o dəhşətli bir günü, - yox, birbirinə calanmış o bir neçə günü üstündən 30 ilə yaxın bir vaxt keçsə də yaddan çıxarmamışam, qara saçlarıma qar yağdıran da o günlər olub, o günlərin hər anını, hər dəqiqəsini indi də indiki kimi xatırlayıram, yaddan çıxara bilmirəm.

...Onda avqustun axırları idi. Respublika Nazirlər Kabineti sədrinin birinci müavini Vahid Əhmədovun başçılıq etdiyi dövlət komissiyasının tərkibində Respublikanın bir sıra rəhbər işçiləri ilə yanaşı, Milli Məclisin şöbə müdiri kimi mən də Füzuliyə getmişdim, daha doğrusu göndərmişdilər. Rayonun girəcəyindəki kəndlərdə rastlaşdığımız dəstə-dəstə adamları görəndə gözlərimə inanmadım. Elə bil ki, hamının gözləri böyümüş, sifətləri qırışmışdı. Heç kim danışmırdı, lal olub dayanmış o insanlar kimdənsə, nə isə eşitmək istəyirdilər, ümid diləyirdilər...

Əhmədbəylidə isə dah dəhşətli mənzərənin şahidi olduq. Sanki, bütün rayon bu kəndə, buradakı dörd yolun ayrıcına yığışmışdı. Anasının qucağına sığınıb sızıldayan körpə də, balasının əlindən asılıb sürünən qoca da, hamı naümid halda donub qalmışdı. Heç kim də hara, nə üçün getdiyini, nə üçün qaçdığını bilmirdi. Bircə onu eşitmişdilər ki, erməni gəlir. Bu dörd yola toplaşanların hamısı elə dörd yol ayrıcında da qalmışdılar. Hara getməli? Necə getməli? Niyə getməli?...

Uzun illərdən bəri tanıdığım, təvözəkarlığı və səmimiliyi ilə seçilən, ən çətin anlarda belə vəziyyətdən düzgün nəticə çıxarmağı bacaran, ölümün də gözünə düz baxıb, düz danışan Vahid müəllim maşından düşüb adamların arasına getdi. Salamlaşıb əl ilə görüşdü. Xasiyyətinə uyğun olaraq özünü təqdim etmədən:

- Bu nədir, hara gedirsizin? - deyə soruşdu. Heç kim dinmədi.

Adamların onu tanımadığını görüb irəli keçdim. Bir yerli kimi məni tanıdıqlarını hiss etsəm də, etika qaydalarına uyğun olmasa da özümdən başladım:

- Mən Füzilinin Dədəli kəndindənəm, Milli Məclisin şöbə müdiriyəm. Vahid müəllim Nazirlər Kabineti Sədrinin birinci müavinidir, bu yoldaşlarda yüksək vəzifə sahibləridirlər, hərəsi bir nazirliyin naziridir - dedim. Bizi Heydər Əliyev göndərib -deyəndə insanların kədər dolu sifətində sanki bir ümud qığılcımı parladı. Bunu hiss edən Vahid müəllim bir qədər də irəli keçib düz dörd yolun ortasında dayandı. Əvvəlcə adamlardan vəziyyəti soruşdu. Hərə bir söz danışsa da konkret fakt deyən olmadı. Elə Vahid müəllim də bu konkretsizlikdən başladı:

- Şayiələrə inanmayın, evinizə qayıdın, bizi Heydər Əliyev göndəribdir ki, vəziyyəti öyrənib dəqiqliyi ilə ona çatdıraq. O da tədbir görsün - dedi.

... Qaraxanbəylidə isə ağız deyəni qulaq eşitmirdi. Polis işçiləri də, respublikanın müxtəlif rayonlarından gəlmiş könüllülər də, qonşu kəndlərin adamları da, hamısı bir yerdə idi. Kəndin mərkəzinə, savxoz idarəsinin qabağına toplaşmışdılar. Bəlkə də onlar bizlərin gəlməsini bilirdilər. Elə ona görə də Vahid müəllimi dövrəyə alıb sorğu suala tutdular. Dövlət Komissiyasının sədri kimi hamını səbrlə dinlədi. Heydər Əliyevin tapşırığı ilə gəldiyimizi, şəhərə gedəcəyimizi bildirəndə çoxları, hətta yüksək rütbəli hərbiçi bir zabit də Füzulinin işğal olunduğunu, orada ermənilərin at oynatdığını dönə-dönə təkrarlayıb inandırmağa çalışsalar da, təkcə bir nəfərin, o vaxt çörək zavodunun direktoru işləyən Tahir Quliyevin sözü ilə, yumşaqlığı qədər də inadkar olan Vahid müəllim, maşınları Füzuli şəhərinə sürdürdü.

Biz qayıdacağıq yazdım

Mərkəzi küçələri gəzdik, küçələrdə sahibsiz itlərdən başqa heç şey gözə dəymirdi. Amma, bu kimsəsizlik, birdəki kimlər tərəfindənsə uydurulmuş şayiə ürəyimdə bir ümidsizlik, niskil yaratdı, bəlkə elə buna görə də birbaşa 8-10-cu siniflərdə oxuduğum məktəbə getdim. Üç il təhsil aldığım sinifə girib partaları, divarları göz yaşları ilə nəzərdən keçirtdim. Hər şey elə o illərdəki kimi səliqəli-səhmanlı idi. Bircə ağaclar böyüyüb pəncərələrin qabağını kəsmişdi. Birdə uşaqlar, bir yerdə oxuduğum şagird yoldaşlarım yox idi. Birdən haradansa ürəyimdə bir fikir səslədi: Bu son görüşdür? Amma dərhal da özümü əla aldım, qara lövhəyə ağ tabaşirlə ***biz qayıdacağıq*** yazdım (Bu barədə "Ədalət" qəzetinin və "525-ci qəzet"in 20 avqust 2020-ci il tarixli sayında dərc olunan "Füzulim mənim" adlı məqalədə daha ətraflı yazmışam). Oradan birbaşa şəhərə bitişik olan kəndimizə yollandım, amma artıq o kənd işğal olunmuşdu.

... Nə isə icra hakimiyyətinin qabağında maşına könülsüz mindiyimi görən Vahid müəllim "nə gözləyirsən, oturun gedək, sabah yenə gələcəyik" - dedi. Maşına sonuncu mindim, Füzulidən çıxdıq. Sabahlar bir-birini əvəz elədi, nə az, nə də ki çox. Vahid müəllimin dediyi o sabah düz 9918 gündən sonra, dünən axşam, özü də qaranlıq bir gecədə dan ulduzu kimi parladı. Rəşadətli ordumuz Füzulinin bir çox kəndlərini, Cəbrayıl şəhərini, rayonun əksər kəndlərini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini faşist xilqətli ermənilərdən azad edəndən az sonra hərb tarixində görünməmiş bir fəndlə ermənilərin 30 il ərzində qurduqları istehkamları dağırıb Füzuli şəhərini də işğaldan azad etdilər.

Uzun illərin həsrətinə son qoyuldu. Bir vaxtlar kimlərinsə, hansı ölkələrinsə ədalətsizliyi üzündən itirdiyimiz torpaqlar, dağıdılıb, yerlə yeksan edilmiş kəndlərimiz, şəhərlərimiz işğaldan azad olundu. **Var olsun ordumuz. Vətən viran da olsa yenə də cənnətdir.**

Yeri gəlmişkən onu da deyim ki, Azərbaycanın bu günkü ordusu da o illərin ordusu deyil. Ordumuz əməliyyat şəraitindən düzgün nəticə çıxarmağı bacaran, qalib gəlməyin sirlətinə yaxşı yiyələnmiş, hərbi texnikanı elmi əsaslarla idarə etməyin yollarını dərindən mənimsəmiş, hər cür müasir silahlarla silahlanmış dövrünün ən güclü ordusudur. Heç insanlar da o insanlar deyil. O vaxt haradansa, kimdənsə "erməni gəlir" deyə eşitdiyi bir sözə görə hər şeyini atıb qaçan o adamlar indi odun, alovun içərisində, erməni gülləsinin yağış kimi yağdığı bir vaxtda kəndindən, kəsəyindən çıxmayıb evlərində qalırlar. Ona görə ki, dövlətinə, rəhbərinə, ordusuna inanırlar. İnanırlar ki, artıq qələbə yaxınlaşıb, Füzuliyə, Cəbrayıla gedən yollar açıldığı kimi Ağdama, Kəlbəcərə, Şuşaya gedən yolların açılmasına da az qalıb, lap az.

Təbiətən kövrək olsam da gələcəyə ümüdlə baxan adamam. Mən bu günü gözləyirdim , nə vaxtsa o sabahın açılacağına, təkcə Füzuliyə deyil, bütün Qarabağa qayıdacağımıza inanırdım. Adını çəkdiyim məqalənin bir yerində ***"zülmət gecədən sonra günəşli sabahın açılacağı labüd olduğu kimi Erməni işğalçılarının torpaqlarımızdan qovulacağı o gün də labüddür"*** yazmışdım. Buna hamı, bütün Azərbaycan inanır. O günü səbirsizliklə gözləyirlər.

Qələbə xalqın birliyində, ölkə rəhbəri ilə həmrəyliyindədir. Füzulinin işğaldan azad olunması xəbərini xalqa çatdıran İlham Əliyev cənabları belə bir çətin anda təkcə qaçqınları deyil, hətta dünyasını qaçqınlıqda dəyişən insanları da yada saldı. Bu qələbəyə görə onların da ruhu şad oldu - dedi. Onlara Allahdan rəhmət dilədi. Kəndimizin qaçqınları isə bu qələbəyə daha çox inanırdılar. Onlar hətta o xoş günlər üçün indidən hazırlıq da görürdülər. Həmin məqalədə ***"Dədəlilər müqəddəs arzularına yetişib, kəndə qayıdanda kənddən şəhidlik zirvəsinə yüksələn igidlərin və bir də dünyasını Dədəli həsrəti ilə qürbətdə dəyişən Dədəlilərin xatirəsini əbədiləşdirmək üçün Kəhrizin üstündəki o məğrur çinarın qanadları altında əsrin faciəsini əks etdirən bir abidə-muzey ucaltmaq fikrindədirlər... Neçə ildir ki, bu abidə muzeyə qoymaq üçün Dədəlisiz dünyasını dəyişən hər bir Dədəlili qaçqının saçından bir çəngə kəsib muzey üçün saxlayırlar..."*** yazmışdım.

Ürəyimi çıxarın dedim

Oktyabrın 17-də Qarabağın dilbər guşələrindən biri olan Füzuli işğaldan azad olundu. Bu münasibətlə hamı bir-birini təbrik edib göz aydınlığı verirdi. Mənə də çox, lap çox zəng oldu, təbrik etdilər. Fillandiyanın paytaxtı Helsinki şəhərindən zəng edən Könül xanım sevincini hönkürə-hönkürə ağlamaqla bildirdi. **Ermənilərin Gəncədə törətdikləri vəhşiliklərə görə axıtdığımız göz yaşlarımızı Füzulinin işğaldan azad olunması haqqında eşitdiyimiz xoş xəbər qurutdu.** Elə dünən 27 il əvvəl dediyimiz qurbanı burada, şam ağaclarının altında kəsdik. Sevincimizin həddi-hüdudu yoxdur. Yaxın günlərdə Bakıya gəlib uşaqlarımı adını eşidib üzünü görmədikləri Füzuliyə, atamın məzarını ziyarətə aparacam. Bizim bir vətənimiz, bir Prezidentimiz var. Prezident dedi ki, Füzuli yerlə yeksan edilib... Eybi yoxdur, Füzuli dağılsa da bizim üçün doğmadır, əzizdir. Füzulini işğaldan azad edən ordumuza eşq olsun. Ali Baş Komandanımız var olsun.

Elə həmin gün zəng edən 50 ildən artıq dostluq etdiyim, uzun illər İmişlidə və Abşeronda kolxoz sədri, sovxoz direktoru işləmiş rəhmətlik Əli Əliyevin hazırda Almaniyanın Köln şəhərində işləyən yüksək ixtisaslı həkim kimi ad-san qazanmış qızı İfrat xanım ürək dolusu təbriklərindən sonra Füzuli şəhəri haqqında, anasının doğulduğu Xan kəndi haqqında xatirələrindən ürəyi döyünə-döyünə danışdı. Bizi xəcalətdən qurtaran xilaskar ordumuza eşq olsun - dedi.

Gecə yarı dünyanın o başından, Amerikadan zəng edən bir türk həkiminin sevinc dolu sözləri məni həm də kövrəltdi.

...O vaxt torpaqlarımızın işğaldan azad olunması gündən-günə uzanırdı. Kədərdənmi, həsrətdənmi tutulduğum

əlacsız xəstəliyi müalicə etdirmək üçün İstanbula getmişdim. Müalicə həkimim, dünya şöhrətli professor başqa elmlərdən, xüsusilə tarix elmindən də çox məlumatlı, yüksək insani keyfiyyətlərə malik bir şəxsiyyət idi. Həm Türk tarixini, həm də Azərbaycan tarixini çox yaxşı bilirdi. Tarixdə baş verən bəzi faktlara münasibətlərimiz üst-üstə düşürdü. Demək olar ki, hər gün Qarabağ problemlərindən, onun yaranma tarixindən, həlli yollarından danışırdıq. Xəstəliyimin ağırlığını üzə vurmasa da cərrahiyyə əməliyyatına ehtiyac olduğunu deyən professor tez-tez tanrıdan mənə şəfa diləyirdi.

Əməliyyat olunacağım günün səhəri baş tibb bacısı əməliyyata razılıq vermək üçün hazırlanmış müqaviləni mənə verdi. Oxumadan qol çəkdim. Bir anlığa hər daşına, torpağına bələd olduğum, bütün Qarabağın, - Şuşanın, Füzulinin, Kəlbəcərin, Laçının, Cəbrayılın sıldırım qayalıqlı dağları, bulaqları, kəhrizləri, meşələri, laləli, bənövşəli, çölləri gözlərim önündə canlandı. Mənə elə gəldi ki, daha bir də o torpaqları görməyəcəm. Elə buna görə də əməliyyata razılıq verdiyim o müqavilənin arxa vərəqinə iki cümlə yazdım. Yazdım ki, "əgər əməliyyatdan sağ çıxmasam ürəyimi çıxarıb burada, igidlər və mərd kişilər diyarı olan Türkiyədə saxlayın, Qarabağ işğaldan azad olunanda ora göndərin, qoy ürəyimi kəndimizdəki o məğrur çinarın kölgəsində, şır-şır axan kəhrizin üstündə basdırsınlar". Doğmalarımın, əzizlərimin dərdinin üstünə dərd gətirməmək üçün onu da təvəqqə elədim ki, bu "ürək məsələsini" heç kimə bildirməsinlər...

Əməliyyat başa çatandan iki gün sonra professor həmin o müqaviləni gətirib stolun üstünə qoydu və ürək dolu sevinclə: Allaha şükürlər olsun ki, mənim dualarımı eşitdi. Hər şey gözlədiyimdən də yaxşı oldu. İndi götür yaz ki, Qarabağ işğaldan azad olunanda o məğrur çinarın kölgəsində keçirəcəyiniz el şənliyinə sizi də dəvət edəcəm.

...O vaxtdan neçə illər keçib, indi əsasən Amerikada yaşayıb işləyən o böyük Türklə görüşə bilməsək də telefonla tez-tez danışırıq. Dünən gecə yarı zəng etmişdi. Sevincinin aşıb-daşdığı danışığından aydın bilinirdi: - Bütün qardaşlarımızı təbrik edirəm - dedi. Sonra da o keçmiş günləri yada salıb: - sənin ölüm ayağında yazdığın "Ürəyimi çıxarıb saxlayın. Qarabağ azad olunanda ora göndərin..." sözləri məni tanıyanların hamısına danışmışam. Allaha şükürlər olsun nəhayət Qarabağ işğaldan azad olunur. Tanrının köməyi ilə tezliklə o torpaqlara bayram şənliyinə gələcəyik - dedi. Sözünə ani ara verən professor bir qədər kövrək halda: - Sizi çərlədib xəstə salan vətən həsrəti, torpaq dərdi haqqında yazdığınız o bir neçə kəlmə mənim də sinəmə dağ çəkdi, ürəyimi dağladı - dedi.

Bir də geri dönməyəcək qaçqınlıqda itən illər

...Gənc yaşlarımda qəzetdə müxbir, şöbə müdiri kimi fəaliyyət göstərəndə də, sonralar Mərkəzi Komitədə işləyəndə də Qarabağla əlaqələrim çox olub. O dövrün tanınmış insanları haqqında saysız-hesabsız məqalələr yazmışam, kitab çap etdirmişəm. Mərkəzi Komitənin təşkilat Partiya işi şöbəsinin məsul təşkilatçısı kimi "kuratoru" olduğum Kəlbəcərdə, Tərtərdə, Laçında, Ağdamda, Füzulidə, Gədəbəydə ermənilərin yaratdıqları bir çox problemlərin aradan qaldırılmasında bilavasitə fəaliyyət göstərmişəm. O rayonlardakı adamların çoxunu yaxından tanıyırdım. Neçəsinin evində qonaq olmuşdum, imkanlarına da, dolanışıqlarına da yaxşı bələd idim... Heyf ki, hər şeyi, özlərinin qazandıqlarını da, ata-babalarından qalanları da atıb, ancaq canlarını götürüb qaçmağa məcbur oldular...

Qaçqınların Azərbaycanın hər tərəfinə axışdığı o illərdə Milli Məclisdə vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri kimi gecə-gündüz onların yanında olmuşam. Şəhərdəki boş evlərdə, yataqxanalarda, sanatoriyalarda yerləşdirilməsində bilavasitə iştirak etmişəm. O ilk günlərdəki ağrılı-acılı qaçqınlıq həyatı çox ağır idi, amma desəm ki, bu uzun qaçqınlıq illərinin hamısında qaçqınlar zillət çəkiblər, bu haqsızlıq olar. İlk illər bu sahədə böyük çətinliklər olsa da, sonradan hər şey qaydasına düşdü. Qaçqınlar üçün şəhərciklər salındı... Çoxları münasib işlərlə təmin olundular, yüksək dövlət qulluğuna irəli çəkildilər. Amma **qaçqınlığın bir adı var, o da qaçqındır.** Torpağından, elindən, obasından, kəndindən, kəsəyindən ayrı düşmüş bu insanlar öz ölkəsində, respublikasında, doğma vətənin dilbər bir güşəsində yaşasalar da onlar həmişə özlərini qürbətdə sayırdılar. **Qürbətin də bir adı var "o da qürbətdir".**

Hər dəfə Qarabağdan, qaçqınlardan söhbət düşəndə bu uzun qaçqınlıq illərində görüşüb söhbət etdiyim, evindən-eşiyindən didərgin düşmüş insanlardan eşitdiyim sözlər qulaqlarımda güllə kimi partlayır, cingildəyir: "...ağır gün bir müddət hamı üçün ağır olur. Qaçqın üçün isə hər gün ağırdır - deyirlər. Biri atasının məzarını ziyarətə gedir, sən ağlayırsan. Bayram olur, hər kəs qapısında novruz tonqalı qalayır, sən ağlayırsan. Qapına elçi gəlir yenə ağlayırsan. Bahar gəlir, güllər açılır, gilas yetişir, üzümə göz düşür qaçqın ağlayır. **Qaçqınlıq təkcə qaçqınlıq deyil, qürbət deyil, həm də göz yaşlarıdır, qaçqınlıq dəhşətdir. Qaçqınlıq cənnətin lap ortasında da olsa zülmün ərşə dayandığı nöqtədir...** Qaçqınlıqda yaşanan hər gün bir ilə bərabər olur. Çünki biz səhər gözümüzü açandan axşam yatana kimi doğulub boya-başa çatdığımız o yerlər haqqında fikirləşirik. Bir quş olub o, diyara uçmaq arzusu ilə yaşayırıq..." İnsafən bu eşitdiklərim dolanışığa görə deyilmir. Dolanışığından heç bir qaçqın narazılıq etmir. Əksinə, işləyənlər də, işləməyənlər də gün-güzəranlarına, onlara göstərilən qayğıya, diqqətə, güzəştlərə görə onu yaradanlardan razılıq edirlər. Narazılıq mənəviyyatdandır, mənlikdəndir.

Şükür ki, nəhayət uzun illərin həsrətinə son qoyuldu, yüz minlərlə qaçqın qaçqınlıqdan qurtardı, qürbətdə vətən həsrəti ilə yaşayan qaçqınların vətənlərinə gedən yol açıldı. Tezliklə hamı öz doğma torpağına qayıdacaq, Ölkə Prezidentinin dediyi kimi dövlətimiz Cocuq Mərcanlını olduğu kimi bu gün xarabalığa çevrilmiş o kəndləri də, şəhərləri də yenidən tikəcək. Hər şey yoluna düşəcək. **Amma qaçqınlıqda itirlən o günlər bir də geri dönməyəcək. Ömür günəş deyil ki, batandan sonra yenə doğulsun, ömür bahar deyil ki, bir də geri dönsün.** Bu barədə bir qaçqının gündəliyinin hər səhifəsinin əvvəlində təkrar-təkrar yazdığı sözləri həyəcansız oxumaq olmur.

Billəm geri dönməyəcək qaçqınlıqda keçən illər.

Aman Tanrı, aman gündü, heç olmasa siz yazmayın ömrümüzə,

Ömrümüzdə sağalmayan yara kimi donub qalmış o illəri.

Dilən, erməni dilən!

Həyatda qəribəliklər çoxdur. Dünyanın heç bir yerində, heç kim müharibəyə sevinməyib, müharibəni alqışlamayıb, çünki müharibə fəlakət deməkdir, qırğın deməkdir. Müharibədə insanlar qırılır, kəndlər, şəhərlər xarabalıqlara çevrilir... Amma indi erməni faşistləri elə bir şərait yaradıblar ki, rəhmdilliyi, sülhsevərliyi, xeyirxahlığı ilə dünyada yaxşı tanınan Azərbaycan xalqı bu müharibəyə yox demədi, əksinə alqışladı. On minlərlə insan könüllü olaraq cəbhəyə getməyə hazır olduğunu bildirdi. Minlərlə azərbaycanlının orduya kömək üçün on min manatlarla, dollarla yardım etməsi təbiidir, necə deyərlər varlığa nə darlıq, əslində dövlətin buna ehtiyacı da yoxdur. Amma, azyaşlı uşaqların oyuncaq almaq üçün "xəzinələrinə" qəpik-qəpik yığdıqlarını bu məqsədlə ortalığa qoyması, Prezidentə məktub yazıb **"Bu pula babalarımızın yaşadıqları torpaqları azad etmək üçün silah alın"** deməsi xalqın vətənə məhəbbətinin sözlə deyilməsi mümkün olmayan nümunəsidir. Ona görə ki, bu müharibə Azərbaycan üçün, azərbaycanlılar üçün vətən müharibəsidir, ədalət müharibəsidir. Bu müharbə 30 ildən bəri işğal altında saxlanan torpaqlarımızın azadlığı uğrunda aparılan müharibədir. Bu müharibədə tökülən qanların, dağılan kəndlərin, şəhərlərin baisi, səbəbkarı özlərini uzaqgörən sayıb, amma yekə burunlarının ucundan o yanı görməyən başa bəla Erməni "baş bilən"ləridir. Biz düşmənin hücumuna əks hücumla cavab verib onları əzirik ki, torpaqlarımızı işğaldan azad edək, nanəcib qonşularımızın yaratdığı bu problemin həlli nəvələrimizə, nəticələrimizə qalmasın.

Biz elimizə, obamıza, doğma torpaqlarımıza qayıtmaq uğrunda müharibə etdiyimizə görə xarici ölkələrdə yaşayan, tanınmış həkimlər, elm adamları, böyük hörmət və şirkət sahibi olan yüzlərlə azərbaycanlı vətənə qayıtdığı halda Ermənistandan yüz minlərlə erməni vətənini qoyub bir tikə çörək üçün yad ölkələrə qaçır. Zülm və cinayətin baş alıb getdiyi Ermənistanda yaşamaq üçün həm kar olub eşitməməlisən, həm də kor olub görməməlisən, ilan kimi aylarla ac-susuz yaşamağı bacarmalısan.

Bu gün ermənilər olduqca ağır və əzablı günlər yaşayırlar. Bu əzabların birinci səbəbi dələduzluqla qurduqları cəmiyyət, səbəbkarı isə o ölkədə saxtakarlıqla, fırıldaqla hakimiyyətə gətirilən dövlət başçılarıdır.

Bu gün Ermənistanın Baş naziri Paşinyan ölkəsini saldığı ağır vəziyyətdən çıxarmaq üçün gecə-gündüz telefon açıb ona-buna zəng edir, diz çöküb yalvarır, kömək istəyir, əslində dilənir. Ölkə başçısının dilənməyi bütün xalqın dilənməyidir. ***Dilən erməni dilən. Hələ çox dilənəcəksiniz, dilənin!***

Məqaləni cəmi 58 gün əvvəl "Ədalət" qəzetində və "525-ci qəzet"də dərc etdirdiyim məqalənin sonluğu ilə bitirirəm... "Deyirlər əzizlərindən ayrılan yeddi il ağlar, vətənindən ayrılan ömrü boyu. Vətən həsrəti ilə yanıb yaxılan füzulilər düz 27 ildir ki, kirimirlər, Füzuliyə gedən yolları kəsən o gözəgörünməz zəncirlərin qırılacağı, kilidlərin açılacağı o günü gözləyirlər. O gün isə uzaqda deyil. Ölkə Prezidenti İlham Əliyev cənablarının apardığı dəqiq və düşünülmüş siyasət, ordumuzun son illərdəki uğurları, birdə ki, azərbaycanlı anaların böyütdüyü, torpaqlarımızı faşist xilqətli Ermənilərdən azad etmək üçün canlarından keçməyə hazır olan, biri min ermənıyə bərabər igidlərimizin şücaəti göstərir ki, doğulub boya-başa çatdığımız torpaqlarımıza qayıdacağımız günə az qalıb, lap az".

Bəli, 60 gün əvvəl yazdığım məqalədə dediklərim düz çıxdı, Füzulidə, Cəbrayılda, daha 90-a yaxın kənd işğaldan azad olundu. Qarabağın qalan torpaqlarının, - Şuşanın, Xankəndinin, Kəlbəcərin, Laçının və digər rayonların da azad olunacağı günə az qalıb, lap az.